Hesabat Məruzəsi

COM/ENR/REP/002/FINAL

*Qeyri-rəsmi tərcümə*

**Beşinci iclas**
**Bişkek, 30 may, 2019-cu il**

# "TƏBİİ SƏRVƏTLƏRİN EKOLOJİ CƏHƏTDƏN SƏMƏRƏLİ İSTİFADƏSİ: HÜQUQİ DƏSTƏK"

## I. GİRİŞ

1. Ətraf Mühit və Təbii Ehtiyatlar Komissiyasının 14 sentyabr 2018-ci il tarixində Bişkekdə keçirilmiş dördüncü iclası zamanı beşinci iclasda gündəliyin əsas maddəsi kimi "Təbii Sərvətlərin Ekoloji Cəhətdən Səmərəli İstifadəsi: Hüquqi Dəstək" mövzusunun müzakirə olunması təklif edilmişdir.

2. Bəşəriyyət son iki əsrdə böyük iqtisadi və əhali artımı yaşamışdır. Sənayenin inkişafı və həyat səviyyəsinin artması, məntiqi olaraq təbii ehtiyatların istehlakının artımı ilə müşaiyət olunmuşdur. Bu proseslərin mümkün nəticələrinin görülməsi insanlar üçün uzun zaman tələb etməmişdir.

3. İnsan zənginliyi təbii ehtiyatların istifadəsi və istehlakına əsaslanır. Ehtiyatların istifadəsinin davamlı olaraq artması və ətraf mühitlə bağlı təsirlər ekoloji böhranlara və təhlükəsizliyə təhdidlər yaradan çoxlu mənfi təsirlərə səbəb ola bilər. Buna görə təbii ehtiyatların davamlı istifadəsi və idarə olunması 1992-ci ildə Rio-de-Janeyroda keçirilən zirvə ilə başlayaraq, hər zaman diqqət mərkəzində olmuş və bir çox siyasi müzakirələrin mövzusu olmuşdur.

4. Son 50 il ərzində insanlar əsasən ərzaq, içməli su, ağac, lif və yanacaq tələblərini ödəmək üçün ekosistemləri bəşəriyyət tarixində hər hansı bir müqayisəli dövrə nisbətən daha sürətlə və geniş şəkildə dəyişmişlər. Bu, insan rifahı və iqtisadi inkişafda əhəmiyyətli mənfəətlərə səbəb olmuşdur, lakin bu nailiyyətlər bir çox ekosistemlərin deqradasiyasının artması ilə əldə edilmişdir.

5. Bir çox digər ölkələrdə də görüldüyü kimi, TÜRKPA üzv ölkələri ətraf mühitin qorunması və təbii sərvətlərin səmərəli istifadəsi ilə bağlı problemlərin həllində maraqlıdırlar, çünki iqtisadiyyatın və insan fəaliyyətinin bütün sahələrinin sürətli inkişafı, təbii ehtiyatların səmərəsiz istifadəsi daxil olmaqla ətraf mühitə mənfi təsirlərin artmasına gətirib çıxarmışdır.
6. Bu hesabat məruzəsinin məqsədi məsələ ilə bağlı regional əməkdaşlıq prioritetlərinin işlənib hazırlanmasıdır. Hesabat məruzəsi Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin müvafiq nazirliklərindən əldə olunmuş materiallar, eləcə də müvafiq beynəlxalq institutların internet resurslarına əsaslanır.

## II. ÜZV ÖLKƏLƏRDƏKİ VƏZİYYƏT

### *AZƏRBAYCAN*

7. Azərbaycan zəngin təbii ehtiyatları və inkişaf etmiş sənaye sahələrinə sahibdir. Bu baxımdan Azərbaycanda 11 iqlim tipindən 9-na rast gəlmək mümkündür. Bundan əlavə, ölkə neft və qaz, faydalı filiz və qeyri-filiz yataqları ilə də zəngindir. Meşə və su resursları da daxil olmaqla, bioloji ehtiyatlar da bu zənginliklər sırasına daxildir.
8. Dünya Mədəni və Təbii İrsinin Qorunması üzrə YUNESKO Konvensiyası, İqlim Dəyişikliyi üzrə BMT Çərçivə Konvensiyası, Vəhşi Faunanın Qorunması üzrə Konvensiya, Səhralaşmaya qarşı Mübarizə üzrə BMT Konvensiyası, Transsərhəd Məzmunda Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi üzrə Konvensiya, Avropada Vəhşi Təbiət və Ətraf Mühitin Mühafizəsi üzrə Avropa Konvensiyası, o cümlədən, Ozon Təbəqəsini Məhv edən Maddələr üzrə Monreal Konvensiyası, Bioloji Müxtəliflik üzrə Konvensiya, Zəhərli Tullantıların Ötürülməsi və Ləğv edilməsinə Nəzarət üzrə BMT Çərçivə Konvensiyası və digərləri daxil olmaqla, Azərbaycan Respublikası ətraf mühit üzrə 20-dən çox çoxtərəfli beynəlxalq konvensiya və protokollara qoşulmuşdur.
9. Eyni zamanda, Azərbaycan Respublikası və müxtəlif ölkələr arasında 30 ikitərəfli sazişlər və anlaşma memorandumları imzalanmışdır. Həmin ölkələr sırasına, xüsusən, qonşu ölkələr olan Gürcüstan, Türkiyə, İran İslam Respublikası, eyni zamanda, Mərkəzi Asiya respublikaları, Moldova, Almaniya, Koreya, Çin, Çex Respublikası, Latviya və digərləri daxildir.
10. Azərbaycanda son illərdə ətraf mühit üzrə imzalanmış sənədlər 2017-2020-ci illər üçün Azərbaycan Respublikasında Biomüxtəlifliyin Mühafizəsi və Davamlı İstifadəsi üzrə Milli Strategiya, Milli İqtisadiyyatın Əsas Sahələri üzrə Strateji Yol Xəritəsi, Azərbaycan 2020: Gələcəyə Baxış İqtisadi Konsepsiyası, 2019-2023-cü illərdə Azərbaycan Respublikasının Regionlarının Sosial-iqtisadi İnkişafı üzrə

Dövlət Proqramı, 2018-2020-ci illər üçün Azərbaycanda Sərt Tullantıların İdarə olunmasının Təkmilləşdirilməsi üzrə Milli Strategiya və Fəaliyyət Planı və s. əks etdirilmişdir.

11. Azərbaycan Respublikası qanunları ekologiya sahəsində hüquqi münasibətlərin tənzimlənməsində həlledici rol oynayır. Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpasından sonra bu sahədə hüquqi münasibətləri tənzimləmək məqsədilə bir sıra qanunlar qəbul edilmişdir. Azərbaycan Respublikası Meşə Məcəlləsi (30 dekabr, 1997-ci il), Azərbaycan Respublikası Su Məcəlləsi (26 dekabr, 1997-ci il), Azərbaycan Respublikası Torpaq Məcəlləsi (25 iyun, 1999-ci il), "Ətraf mühitin mühafizəsi haqqında" (8 iyun, 1999-cu il), "Yer haqqında" (13 fevral, 1998-ci il), "Atmosfer havasının mühafizəsi haqqında" (27 mart, 2001-ci il), "Xüsusi mühafizə olunan ərazilər haqqında" (24 mart, 2000-ci il), "Vəhşi təbiət haqqında" (04 iyun, 1999-cu il), "Ətraf mühitə dair məlumatlar haqqında" (12 mart, 2002-ci il), "Əhalinin radiasiya təhlükəsizliyi haqqında" (30 dekabr, 1997-ci il), "Balıqçılıq haqqında" (27 mart, 1998-ci il), "Yaşıllığın mühafizəsi haqqında" (2 may, 2014-cü il), "Ekoloji təhlükəsizlik haqqında" (04 iyun, 1999-cu il), "Ətraf mühit təhsili və əhalinin maarifləndirilməsi haqqında" (10 fevral, 2002-ci il), "Hidro meteoroloji fəaliyyət haqqında" (17 aprel, 1998-ci il), "Ətraf mühitin təsirinin qiymətləndirilməsi haqqında" (12 iyun, 2018-ci il) qanunlar və digərləri bu qanunlar sırasına daxildir.

12. Yuxarıda qeyd olunduğu kimi, ətraf mühit haqqında bir sıra qanunlar qəbul edilmişdir. Bu qanunlar Azərbaycan Respublikası Konstitusiyasına əsaslanır. 1999-cu ildə Ətraf Mühitin Mühafizəsi haqqında qanun qəbul edilmişdir. Ətraf Mühitin Mühafizəsi haqqında qanun bütün sahələri – tullantıların idarə olunması, faunanın mühafizəsi, ekoloji ekspertiza və s. əhatə edir. 2007-ci ildə Ətraf Mühitin Mühafizəsi haqqında qanuna bəzi düzəlişlər edilmişdir. 2008-2009-cu illərdə Prezident fərmanı ilə nəzarət funksiyaları Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Daxili İşlər Nazirliyi və Səhiyyə Nazirliyinə təhvil verilmişdir.

13. 16 iyul, 2018-ci il tarixli Prezident fərmanına əsasən, mineral xammal ehtiyatlarının qorunması və təbii ehtiyatlardan səmərəli istifadə məqsədilə Mineral Xammaldan İstifadə üzrə Dövlət Agentliyi yaradılmışdır.

14. Ümumilikdə, ölkədə ekoloji vəziyyət, təbii ehtiyatlar, onların mühafizəsi və bərpası dayanıqlı inkişaf konsepsiyasının ayrılmaz hissəsinə çevrilmişdir. Bununla əlaqədar olaraq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ətraf mühitin mühafizəsi üzrə BMT sisteminin bütün ikitərəfli və çoxtərəfli formatlarında əməkdaşlıq edir.

***QAZAXISTAN***

15. Dövlətin ekoloji siyasətinin əsasları Qazaxıstan Respublikasının Konstitusiyasında tam şəkildə müəyyən edilir. Ətraf mühitin qorunması, siyasi sənədlər və strategiyalar Qazaxıstan qanunvericiliyində öz əksini tapmışdır.
16. Qazaxıstan Respublikasının Ətraf Mühit Məcəlləsi 9 yanvar 2007-ci il tarixində qəbul edilmişdir. Bu Məcəllə Qazaxıstan Respublikası ərazisində təbii sərvətlərdən istifadə və ətraf mühitə təsirə aid iqtisadi və digər fəaliyyətlər zamanı təbii sərvətlərin mühafizəsi, bərpası, saxlanılması, istifadəsi və yenidən istehsalı sahəsində münasibətləri tənzimləyir.
17. Qazaxıstan Respublikasının davamlı inkişafı üçün ekoloji əsaslar dövlətin insan həyatı və sağlamlığı üçün əlverişli mühitin təmin edilməsi; ətraf mühitin mühafizəsi və bioloji müxtəlifliyin qorunması; Qazaxıstan Respublikasının təbii ehtiyatlarını inkişaf etdirmək və təbii ehtiyatların istifadəsi və ətraf mühitə təsiri üzrə milli maraqları təmin etmək; indiki və gələcək nəsillərin ehtiyaclarını ədalətli təmin etmək; davamlı istehsal və istehlak modellərini inkişaf etdirmək; ekoloji standartların ətraf mühitin vəziyyətini nəzərə alaraq, sosial və iqtisadi inkişaf şərtlərinə uyğunluğu; hər bir insanın ətraf mühitə dair məlumatlara və ətraf mühit məsələlərinə və davamlı inkişafa tam həssas iştirak etmək hüququna riayət olunması; ətraf mühitin mühafizəsi sahəsində görülən tədbirlərin açıqlığının təmin edilməsi; sağlam dövlət və yer ekosisteminin bütövlüyünün qorunması, saxlanması və bərpası üçün qlobal tərəfdaşlıq; ətraf mühitə dəyən zərər üçün məsuliyyətə dair beynəlxalq hüququn inkişafını təşviq etmək; digər ölkələrə ətraf mühitə ciddi ziyan vuran və ya insan sağlamlığına zərərli hesab edilən hər hansı bir fəaliyyət və maddələrdən ötürülmənin qarşısını alınması məqsədi daşıyır, habelə ətraf mühitə ciddi və ya geri dönməz ziyan törətmək təhlükəsi olduğu hallarda tədbirlər görülür.
18. Beynəlxalq müqavilələrə gəldikdə, Qazaxıstan Respublikası ekoloji məsələlərdə fəal iştirak edir. Qazaxıstan 30-dan çox bioloji müxtəlifliyə, suya aid və digər beynəlxalq müqavilələrə tərəfdaşdır. 2 Avqust 2016-cı il tarixində Qazaxıstan Respublikası Paris Sazişini imzalamışdır. Bu razılaşmaya əsasən, Qazaxıstan 2030-cu ilədək karbon dioksid emissiyalarını 15 faizədək azaltmağa qərar vermişdir.
19. Ümumilikdə, ölkənin ekoloji qanunvericiliyinin inkişafı üçün şərait mövcuddur. Bu sahədə Qazaxıstan Respublikasının Enerji Nazirliyi məsul təşkilatıdır. Onun tərkibinə Ekoloji Tənzimləmə və Nəzarət Komitəsi daxildir. Eyni zamanda, Qazaxıstanın müvafiq nazirlikləri ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyin həyata keçirilməsində iştirak edirlər.

20. Eyni zamanda, Qazaxıstan Respublikası Parlamenti bu qanun və qaydaları qəbul etmək üçün əsas səlahiyyətə malikdir. O, qanunvericilik aktlarının təkmilləşdirilməsi və inkişafı sahəsində əsas səlahiyyətli orqandır.

## *QIRĞIZISTAN*

21. 2012-ci ildə keçirilən BMT-nin "RIO + 20" Davamlı İnkişaf Konfransında Qırğızıstan "yaşıl iqtisadiyyat" ın prioritetlərini təbliğ etməklə uzun müddətli davamlı inkişafla əlaqədar öhdəliklərini ifadə etdi.
22. 2013-2017-ci illər üçün Milli Davamlı İnkişaf Strategiyasının bir hissəsi olaraq 2013-cü ilin yanvar ayında davamlı inkişaf üzrə ölkənin siyasi kursu qəbul edilmiş və bir qədər əvvəl, 2012-ci ilin noyabrında, Davamlı İnkişaf üzrə Milli Şura yaradılmışdır. Strategiya çərçivəsində ilk dəfə olaraq insan inkişafı, insan və təbii sərmayə prioritetləri əsas mərkəzi prioritetlər kimi irəli sürülmüşdür.
23. Qırğızıstanın 2040-cı ilə qədər olan Milli İnkişaf Strategiyasında və Hökumətin "Birlik, İnam, Yaradılış" İnkişaf Proqramında təbii sərvətlərin qorunması və səmərəli idarə olunması məsələləri ölkənin iqtisadi inkişafı ilə əlaqəlidir.
24. Bu sahədə Qırğızıstan gələcəkdə davamlı inkişafa təhlükə yaradan bir sıra problemlər, o cümlədən effektiv alternativlər yaratmadan təbii ehtiyatların tükənməsi, təbii ekosistemlərin itirilməsi, aşağı resurs və enerji səmərəliliyi və aşağı dərəcəli insan kapitalının inkişafı ilə qarşılaşır.
25. Ciddi problemlərdən biri də gözlənilən iqlim dəyişikliyidir ki, bu proses əhalinin həyat şəraiti və sağlamlığı üçün müəyyən təsir göstərəcəkdir. Amma bu daha çox Respublikanın su resurslarına təsir edəcəkdir ki, bu da hidroenerji və kənd təsərrüfatı istehsalı üzrə imkanları azaldacaqdır.
26. Təbii ehtiyatların səmərəli istifadəsi onlara qənaət edilməsinə, onlardan geniş istifadənin azaldılmasına və bərpa edilə bilən resursların qeyri-bərabər və davamlı istifadəsinin qənaətlə həyata keçirilməsinə, eləcə də günəş, külək və s. alternativ enerji mənbələrinin inkişafına yönəldilməlidir.
27. Qırğızıstanın Joqorku Keneşinin 28 iyun 2018-ci il tarixli 2532-VI №li qərarına əsasən Qırğızıstan Respublikasında yaşıl iqtisadiyyat konsepsiyası olan "Qırğızıstan yaşıl iqtisadiyyat ölkəsi" adlı konsepsiyası qəbul edilmişdir. Bu Konseptin və Qırğızıstanın 2040-cı ilə qədər olan Milli İnkişaf Strategiyasının həyata keçirilməsinin bir hissəsi olaraq 2019-2023-cü ilə olan "Qırğızıstanda yaşıl iqtisadiyyatın inkişafı üzrə Proqram" inkişaf etdirilmişdir.
28. Qırğızıstan Respublikasının ətraf mühit qanunvericiliyi ətraf mühitin mühafizəsi və təbii sərvətlərin qorunması ilə bağlı bir çox hüquqi münasibətləri tənzimləyir. Onlar

iqtisadi və digər fəaliyyətlər zamanı ətraf mühitin mühafizəsi üçün norma və tələblər qoyur, ətraf mühit cinayətlərinin növlərini, məsuliyyətə cəlb olunmaqla bağlı ölçü və prosedurları müəyyənləşdirir, təbii ehtiyatların istifadəsi üçün prosedurları, azadlığa buraxılma qaydaları və kvotalar təsis edir və qoruyucu və bərpa tədbirlərini təmin edir.

29. Qırğızıstanda ətraf mühitin mühafizəsinə dair əsas hüquqi və normativ sənəd "Ətraf mühitin mühafizəsi haqqında" qanundur ki, bu qanunla ətraf mühitin idarəçiliyi və mühafizəsi sahəsində siyasi hüquqi baza və hüquqi münasibətlər təmin edilir.
30. Planlaşdırılan iqtisadi və digər fəaliyyətlərin ictimai sağlamlıq və ətraf mühitə mənfi təsirlərinin qarşısının alınması məqsədilə "Ekoloji ekspertiza haqqında" Qanuna uyğun olaraq dövlət ekoloji ekspertizası həyata keçirilir. Eyni zamanda, layihə sənədlərinin hazırlanmasının bütün növləri və mərhələlərinin zəruri və ayrılmaz hissəsi Ətraf mühitə təsirin qiymətləndirilməsidir (ƏMTQ). Fəaliyyətin təşəbbüskarı bununla bağlı sənədləri Dövlət Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi üçün təqdim edir. Dövlət ekoloji ekspertizasının müsbət nəticələri imtahan obyektinin maliyyələşdirilməsinə, kreditləşdirilməsinə, investisiya qoyulmasına və həyata keçirilməsinə icazə vermək üçün bir şərtdir.
31. Nəticədə, ölkənin inkişaf prioritetlərində ətraf mühitin davamlılığının təmin edilməsi və ətraf mühitin davamlı idarə edilməsi məsələlərinin daxil edilməsi, təbii mühitdəki deqradativ dəyişikliklərə gətirib çıxarmayan sabit iqtisadi artımın təmin edilməsinə uzunmüddətli əsas yaradır.

***TÜRKİYƏ***

32. Mədənçilik yeraltı ehtiyatların çıxarılması və ictimaiyyətin xidmətinə təqdim edilməsidir. Yer qabığından filizlərin çıxarılması və iqtisadiyyata ötürülməsi qaçılmaz zərurətdir. Təəssüf ki, filizlər tükənən ehtiyatlardır və görülən işin təbiətindən asılı olaraq onların iqtisadiyyata ötürülməsi zamanı təbiətə ziyan vurmanın qarşısının alınması məqsədilə müxtəlif tədbirlərin görülməsinə ehtiyac var.
33. Təəssüf ki, mədənçilik sektorunda ən problemli sahələrdən biri ətraf mühitdir. Hazırda, əvvəl də olduğu kimi mədənçilik inkişafın mühərrikidir. Bu demək olar ki, həyatımızın bütün aspektlərinə toxunan bir sektordur. Bu səbəbdən də iqtisadiyyat və iş qüvvəsi baxımından çox əhəmiyyətli bir sahədir.
34. Enerji və Təbii Sərvətlər Nazirliyi tədqiqat, istismar və post-mədənçilik üçün Türkiyə qanunvericiliyinə lazımi düzəlişlər etmiş və etməkdə davam edir.

35. Yerli və milli mədənçilik siyasəti çərçivəsində Türkiyə mühüm addımlar atmışdır. Türkiyədə mədən sektorunda yalnız insan və təbiətə münasibətdə deyil, eləcə də insanların ətraf mühit fəaliyyətlərində mədəniyyət formalaşmışdır.
36. Mədənçilikdə ətraf mühit məsələləri üzrə tədbirlərin görülməsi ilə filizlərin istismarından sonra bərpa mərhələsi də mədən layihəsinə daxildir. Beləliklə, sahibkar işə başlamazdan öncə bərpa mərhələsini nəzərə alır.
37. Mədənçilik haqqında qanunda qeyd olunduğu kimi, yanvar ayının sonunadək, filizlərin istismarı üzrə 70% rüsum ümumi büdcəyə, 30% isə ətraf mühit planının həyata keçirilməsi üçün baş idarəyə köçürülür. Belə ki, sahibkarın iqtisadi vəziyyəti bərpa üçün münasib olmadıqda, bərpa dövlət tərəfindən təmin edilir. Əməliyyat müddəti bitdikdə, lisenziya sahibi ərazini təhvil verməli və müvafiq sənədləri Baş Direktorluğa təqdim etməlidir. Bu bərpa işlərinin yerinə yetirilməsi üçün lisenziya sahibinə bir il müddət verilir. Bu müddət ərzində lazımi tədbirlər görülmədikdə, bütün məsuliyyət lisenziya sahibinin üzərində qalır, vəziyyət icra hakimiyyətinə məruzə edilir və lokal olaraq araşdırılır.
38. Lisenziyalaşdırılmamış ərazilərdə mədənçilik fəaliyyətləri müəyyənləşdirildiyi halda, bu sahələrin bərpası dövlət agentlikləri tərəfindən həyata keçirilir. Mədənçilik və lisenziyalı fəaliyyətlər ətraf mühitə təsirlər və urbanizasiya kimi bir sıra səbəblərə görə qadağan oluna bilər.
39. Mədənçilik, xüsusilə, kömür mədənçiliyi ətraf mühit problemlərinə səbəb olur. Ətraf mühitin çirklənməsinə xüsusi diqqət ayırmaq lazımdır. Su, hava çirklənməsi, sərt tullantılar və dumanla çirklənmə bura daxildir. Eyni zamanda, sahənin istifadəsi səbəbindən ərazilərin pozulması haqqında danışmaq mümkündür. Bu sahəni tənzimləmək məqsədilə Enerji və Təbii Sərvətlər Nazirliyi tərəfindən böyük həcmdə iş görülmüşdür. Bunlardan ən əhəmiyyətlisi Ətraf mühit qanunudur. Bundan əlavə, tullantıların idarə olunması, su çirklənməsi, su çirklənməsinə nəzarət qaydaları, neftlə çirklənmə və digər məsələlərlə bağlı bir çox fəaliyyətlər həyata keçirilməkdədir.
40. Mədənçilik sektoru ekoloji baxımdan tamamilə inteqrasiya formasında öz fəaliyyətlərini davam etdirir. Belə ki, Türkiyədə mədənçilik fəaliyyəti lisenziya mərhələsindən başlayır. İkinci mərhələ isə ətraf mühitə dost ətraf mühit qiymətləndirməsidir. Türkiyədə mədən fəaliyyətini həyata keçirmək üçün şirkət lisenziyaya sahib olmalı və Ətraf Mühitə Təsir Sertifikatı əldə etməlidir. Sonra şirkət mülkiyyət və yerləşmə ilə bağlı sənədləri təmin edir. İş yerinin açılışı və iş icazəsi alınır. Daha sonra Mədən və Neft üzrə Baş Direktorluq şirkətə fəaliyyət göstərmək üçün icazə verir. Sonda isə digər müvafiq icazələr əldə olunur.

41. Mədənçilikdə həm emal, həm də təkrar istifadədə çoxlu mədən tullantıları meydana gəlir. Onların ətraf mühitə təsiri və mənfi təsirlərinin aradan qaldırılması baxımından Türkiyədə bir çox fəaliyyətlər həyata keçirilməkdədir.
42. İlkin olaraq mədən tullantısının təbiəti müəyyən olunur. Bir sıra testlər və laboratoriya fəaliyyətlərinin ardınca, mədən tullantısının təbiəti müəyyənləşdirilir və zəhərli tullantı yaxud təhlükəsiz mədən tullantısı olduğu ayırd edilir. Eyni zamanda, tullantıların idarə edilməsi qanunvericiliyi inkişaf etdirilərək həyata keçirilməkdədir.
43. Türkiyədə mədən əməliyyatlarında yeraltı suların analizi tullantı sularına nəzərən həyata keçirilir və zəruri icazələr verilir. Bununla əlaqədar olaraq, Nazirlik yeraltı və bulaq suları ilə davranış qurğuları yaratmışdır. Bu müəssisələr fəaliyyət göstərir.
44. Eyni zamanda, kömür istehsalı və kömürün hava çirklənməsinə birbaşa təsirinin azaldılması məqsədilə, Türkiyədə uzun illərdir hava çirklənməsinin qarşısının alınması üzrə normativ akt mövcuddur. Bununla əlaqədar olaraq, Türkiyədə isitmə üçün uyğun olmayan kömürün istifadəsinin qarşısı alınır. O cümlədən, mədən fəaliyyətləri zamanı istifadə olunan neft və neft tullantıları üzrə qanunvericilik də mövcuddur.
45. Mədən sektoru bu sahədə fəaliyyət göstərən bütün tərəfdaşlar tərəfindən dəstəklənməli və sərmayə qoyulmalıdır. Bununla əlaqədar olaraq, mədən fəaliyyətlərinin həyata keçirilməsi, risklərin araşdırılması və mədən şirkətlərinə müvafiq xəbərdarlıqların edilməsi mühüm əhəmiyyət kəsb edir.

## III. TÜRKPA ÜZVÜ ÖLKƏLƏRİNİN ƏMƏKDAŞLIĞI VƏ NƏTİCƏLƏR

46. Təbii ehtiyatlar iqtisadi fəaliyyətin əsası, həyat keyfiyyətinin ən vacib amili, mövcud və gələcək nəsillərin rifahının təməlidir. Buna görə, təbii ehtiyatların səmərəli idarə edilməsi, onların rasional istifadəsi iqtisadi inkişaf və ətraf mühitin mühafizəsi üçün əsas şərtdir.
47. Göründüyü kimi, TÜRKPA üzv ölkələrinin ətraf mühitin mühafizəsi məqsədlərinə dəstək olaraq, bu ölkələrdəki ekoloji vəziyyətin yaxşılaşdırılması üçün Avropa qanunvericiliyinə uyğun bir sıra mühüm qanunlar, hüquqi sənədlər və dövlət proqramları hazırlanmış və təsdiq edilmişdir. Bu tədbirlər ekoloji problemlərin ilkin mərhələdə təcili həll olunması prinsipinə uyğun olaraq müvafiq dövlət proqramları çərçivəsində həyata keçirilmişdir.
48. Qeyd etmək lazımdır ki, ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və qorunması üçün beynəlxalq təşkilatlarla və inkişaf etmiş ölkələrlə əlaqələrin genişləndirilməsi TÜRKPA üzv ölkələrinin ekoloji siyasətinin əsas istiqamətlərindən biridir.

49. İctimaiyyət arasında təbii ehtiyatların davamlı istifadəsi məsələsində aşağı səviyyədə maarifləndirmə problemi mövcuddur. Təbii ehtiyatların davamlı istifadəsi məsələsində insanlar arasında problemin bilincinin və anlaşılmasının səviyyəsi problemin uğurla həllində mühüm amildir.
50. TÜRKPA üzvü olan ölkələr, üzv olduqları beynəlxalq təşkilatlar çərçivəsində və ortaq olduqları beynəlxalq müqavilələr çərçivəsində müvafiq sahələrdə əməkdaşlıq edə bilərlər.
51. TÜRKPA tərəfindən 23-24 yanvar 2019-cu il tarixində Türkiyə Böyük Millət Məclisinin dəstəyi ilə Ankara şəhərində keçirilən "Meşələrin Təbii Sərvətlərinin Qorunması və Təbii Sərvətlərin Ekoloji Cəhətdən Səmərəli İstifadəsi üzrə Seminar" müvafiq qurumlarımız arasında əməkdaşlığın möhkəmləndirilməsində mühüm rol oynamışdır. Üzv ölkələrindən olan ekspertlər bir-biri ilə tanış olmuş, informasiya mübadiləsi etmişlər.
52. TÜRKPA üzvü ölkələrinin bu məsələdə qarşılıqlı əməkdaşlıq etmələri üçün geniş imkanlar mövcuddur. Seminar və konfranslar, təcrübə mübadiləsi proqramları kimi birgə tədbirlər və fəaliyyətlərin həyata keçirilməsi yolu ilə qarşılıqlı əlaqələrin genişləndirilməsi onların xalqlarının və regionun maraqları baxımından əməkdaşlığı gücləndirəcəkdir.